2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 26 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 28 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə vətəndaş Məmmədov Asif Çərkəz oğlunun 119 saylı Ağdam kənd seçki dairəsinin Çəmənli bələdiyyəsi üzrə səsvermə günü 23 və 24 saylı seçki məntəqələrində seçkilərin şəffaf keçirilməməsi, həmçinin səslərin düzgün hesablanmamasına dair 26 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər.

Həmin Məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. Vətəndaş Məmmədov Asif Çərkəz oğlunun 119 saylı Ağdam kənd seçki dairəsinin Çəmənli bələdiyyəsi üzrə səsvermə günü 23 və 24 saylı seçki məntəqələrində seçkilərin şəffaf keçirilməməsi, həmçinin səslərin düzgün hesablanmamasına dair 26 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov